**Elnur Müslüm oğlu İmanov**
*AMEA Arxeologiya və Etnoqrafiya institutunun*
*"Etnoarxeologiya" şöbəsinin dissertantı*
E-mail: elnurimanov@mail.ru

# AZƏRBAYCANIN TUNC DÖVRÜ QAYAÜSTÜ TƏSVİRLƏRİNDƏ YIRTICI HEYVAN RƏSMLƏRİ

**Açar sözlər:** Bəbir, şir, canavar, qaya, daş, pələng, yırtıcı

**Key words:** Leopard, lion, wolf, rock, stone, tiger, predator

**Ключевые слова**: Леопард, лев, волк, скала, камень, тигр, хищник

Azərbaycan ərzisində yerləşən qədim qayüstü təsvir abidələrində çoxsaylı yırtıcı heyvan rəsmləri də vardır. Qobustan, Gəmiqaya, Kəlbəcər, Abşeron və indi Ermənistan adlandırılan Qərbi Azərbaycanın Göyəm dağı, Zəngəzur petroqliflərində maraqlı yırtıcı heyvan rəsmlərinin nümunələri var. Rəsmlər arasında məməlilər sinfinə aid olan yırtıcılar dəstəsinin pişikkimilər (Felioformia və ya Feloidea) və itkimilər (Caniformia və ya Canoidea) yarımdəstəsinin bəzi nümayədənlərinə rast gəlinir. (Yırtıcı Latınca Carnivora – caro, carnis – ət, vorora – yemək "ətyeyənlər" deməkdir) Yırtıcılıarn Azərbaycan ərazisində yaşaması, populyasiyası üçün əlverişli təbii coğrafi şərait, əlverişli iqlim, bol yem ehtiyyatı olmuşdur. Buna görə də yırtıcılar insanların həyatında əhəmiyyətli yer tutaraq ibtidai incəsənətin bir hissəsi olan qayaüstü təsvir abidələrində geniş əks olunmuşdurlar.

**Qobustan** qayalarında xeyli yırtıcı heyvan təsviri qeydə alınıb. Burada yırtıcı heyvan rəsmləri olduqca real və bədən ölçüləri tam mütənasib çəkilmələri ilə diqqət çəkirlər. Böyükdaş dağı yuxarı səki sahəsində daşda pişik təsvir edilmişdir. Tədqiqatçı Cəfərqulu Rüstəmov bu təsvirin orta əsrlərə aid olduğunu qeyd etmişdir. Pişik olduqca dinamik təsvir olunub sanki indicə hərəkət edəcəkdi. Onun quyruğu dik qalxaraq heyvanın belinə paralel uzanır, baş hissəsi adi xətlə çəkilmiş, qulaqları bildirən xətlər isə başa maili birləşdirilmişdir. (10, s.81) Şir təsvirləri arasında bir şir daha çox diqqət çəkir. Burada şirin bədəninin mütənasibliyinin, xarakterik xüsusiyyətlərinin ustalıqla təsviri rəssamın bacarığının, müşahidə qabiliyyətinin yüksək olmasını söyləməyə əsas verir. Tədqiqatçı İ. Cəfərzadə bu şirin yaşının e. ə. IV – III minilliyə aid olduğunu qeyd etmişdir. Qubustanda bir çox hallarda şirlərin baş hissəsi iri, boyun nahiyəsi nisbətən qalın, getdikcə nazilən uzun quyruğunun ucu isə yumuru, tüklü həkk olunmuşdur. Pəncələri iri, caynaqlı, dişləri görünməklə ağzı açıq beli isə nazik verilmişdir.

Qobustanda xallı bəbir və ya pələngin marala hücum etməsi səhnəsi təsvir olunub. Bu təsvir dövrümüzə qədər gəlib çatmış yeganə boya ilə çəkilmiş rəsmdir. Burada xallı bəbir (ya pələng) qaçıb xilas olmağa çalışan maralı az qalır ki arxadan tutub parçalasın. Digər daşda isə kişik ölçülü pələng və maral qarşı qarşıya dayanmış vəziyyətdə təsvir edilmişdirlər. Buradakı təsvir iti uclu alətlə daşın üzərində cızılmışdır. Yırtıcı qabaq ayaqları üzərinə əyilərək qulaqlarını şəkləmiş sanki indicə maralın üzərinə atılacaqdır. Əvvəlki səhnədən fərli olaraq bu tabloda maralın qaçmaq istəməsi yox, buynuzları ilə özünü müdafiə etmək istəməsi görünür. Yazılıtəpədəki daşda isə şirlərin keçini ovlaması səhəsi təsvir edilib. İki şirin keçilərə hücum etməsi səhnəsi təsvir edilib. Bu səhnədə şirlərdən biri sanki keçinin başından tutub, ikinci şirin qabağında isə keçinin ayaqlarının yuxarıda olduğu göstərilir ki, bu da şirin keçinin bir hissəsini yeməsi deməkdir. (10, s.83) Şir təsvirləri paleolit düşərgələrinin yaxınlığında da aşkar olunmuşdur. Şir, bəbir, pələng təsvirlərinin ovsunçuluq məqsədi ilə çəkilməsi də ehtimal olunur. Bəzən isə yaşayış yerinin mühafizəçisi obrazında çıxış edirlər. Dünyanın bir çox xalqlarında indi də şir, pəlng sümüyü və ya dişi talesman kimi qəbul olunur. (10, s.83) Tarixin müxtəlif dövrlərində bəzi xalaqlar bu heyvanları ilahiləşdirmiş, öz

əcdadları saymış və ona sitayiş etmişdirlər. Şir təsvirlərini astraloji tərəfinin olması ehtimalı var. Şir çox mədəniyyətlərdə Günəş simvoludur və səmada ayrıcı şir bürcü də vardır. Pələng qədim insanların təsəvvüründə eyni vaxta həm xeyiri həm də şəri təcəssüm etdirir, həm dağıdıcı həm də yaradıcı obrazı təmsil edirdi. (4, s.24) Azərbaycanda yuxarı Paleolit dövrünə aid Binəqədi qır qəbristanlığında da şir sümüyü tapılmışdır. Onları tədqiq edən N.K.Vereşagin (osteoloji material əsasında) həm mağara şiri həm də pələngin elementlərini qeydə almış və heyvana şirpələng (tiqrlev) adı vermişdir. (10, s. 83) Qobustan qayaüstü təsvirlərində olan pişikkimilərin təsvirləri bəlkə də Binəqədi faunasındakı şirpələngin təsvirləridir. İndi Azərbaycan ərazisində şir və pələng kimi heyvanların nəsli kəsilsə də vaxtı ilə burda onların sayının çox olduğunu məlumdur. Sonuncu dəfə pişikkimilərin bu iri nümayəndələrinə ölkəmizin təbiətində ötən əsrə qədər təsadüf edilirdi. Sonrada onların qida ehtiyyatları azaldığından və ya digər səbəbdən sayları azalmış və məhv olmuşdurlar. Azərbaycanda sonuncu pələng XX əsrdə 1932-ci ildə Biləsuvar rayonu ərazisində rus hərbiçilər tərəfindən ovlanmışdır. Pələnglərin təsnifatında bir pələng yarımnövü də var ki onun adı Xəzər pələngidir (Panthera tigris virgata). Bəzən Turan pələngi və ya Hirkan pələngi də adlandırılan bu yarımnövün də nəsli kəsilib. Dövrünün rəssamları görmədikləri halda bu yırtıcıları belə dəqiqliklə təsvir edə bilməzdirlər. Qobustanda digər yırtıcılar kimi canavar, tülkü, it təsvirləri də var. Qobustandakı bir təsviri tədqiqatçı İ. Cəfərzadə öküz ovlayan ovçunun iti kimi, digər bənzər yırtıcını da it təsviri kimi qeydə alınıb. Lakin tədiqatçı Cəfərqulu Rüstəmov yuxarıda qeyd olunan hər iki təsvirlərin itdən çox şir ya da pələng ola biləcəyini qeyd edib. O, qeyd edir ki, yırtıcının başının iri, boynunun nisbətən yoğun olması bədənin arxaya doğru getdikcə nazilməsi, pəncələrin caynaqlı, quyruğunun pişik quyruğu kimi yuxarı qatlanıb arxaya qatlanması və ucunun topa tüklü olması onun şir olduğunu deməyə əsas verir. O, burada quyruğun vəziyyətinin səhv verilməsinin rəssamın bu yırtıcı haqqında biliklərinin səthi olması ilə əlaqələndirmişdir. Qobustanda itin canavarı qovması səhnəsi də təsvir etdirilib. Başqa tabloda isə iki yırtıcı qarşı qarşıya qoyulub sanki döyüşə hazırlaşırlar. Bunlardan biri şir digəri isə pişikkimlərin digər iri nümayəndələrindəndir. Onun caynaqları, başının, boynunun qalın olması şiri xatırlatsa da sifətinin ağız hissəsində dimdikvarı çıxıntı var bu da onu daha qorxunc bəlkə də zoomorf mistik varlıq kimi göstərir. (10, s.82)

**Gəmiqayada**: Tunc dövründə yaylaq maldarlığı ilə məşğul olan əhali köməkçi, qoruyucu vasitə kimi itlərdən geniş istifadə etmişlər. Gəmiqayada da bir neçə daşda keçilərlə yanaşı itlərin müxtəlif rəsmləri aşkar edilmişdir. (3, s.49) Burada bir qədər aşağı qısılaraq hürən it təsvir edilmişdir. Onun irəli yönəlmiş ağzı geniş açılmış, quyruğu yuxarı qalxmışdır. Ümumilikdə təsvir sxematik verilsə də itin hürmə məqamı realist çalarlarla ifadə olunmuşdur. Digər daşda isə atlı ilə birlikdə bəbir və canavar təsviri verilmişdir. (Şəkil 1) Başqa bir daşda tək, nazik xətlə, lakin bütün it təsvirlərindən daha böyük ölçüdə, döymə-sürtmə üsulu ilə həkk edilmiş sxematik it rəsmi də qeydə alınmışdır. Eynilə buna bənzər digər sxematik it təsviri bir qədər kiçik ölçüdədir. Tək, qalın xətlə, döymə qazma üsulu ilə həkk edilmiş it rəsmi diqqəti cəlb edir. Onun bədəni düz vəziyyətdə təsvir edilmişdir. İtin qarşısında bir sonluğu girdə dalğalı xətt vardır. Çox güman ki, bu ilan rəsmidir və burada ilanla qarşılaşmış, döyüşə hazır vəziyyətdə olan it təsvir edilmişdir. (Şəkil 2) Başqa bir daşda itin siluet rəsmi qeydə alınmışdır. Onun arxaya uzanmış quyruğunun sonluğu yuxarı qatlanmışdır. İri, güclü bədənli təsvir edilmiş itin qarşısında şaquli bir xətt çəkilmişdir. Gəmiqayada bəzi tablolarda itlər qulaqsız təsvir olunmuşdurlar. Indi də qoyun sürülərini qoruyan itlərin qulaqlarının kəsildiyi məlumdur. Deməli bu itlər tədqiqatçılar: V.Əliyevin və N.Müseyiblinin qeyd etdikləri kimi təsərüfatın qoruyucusu olan çoban itləridir.

Gəmiqayanın qədim sakinləri bu dağlarda yaşayan, nadir yırtıcılardan olan bəbirlərin rəsmlərini daşlar üzərində məharətlə

həkk etmişdirlər. Bir daşda sıçrayışa hazır, bədəni arxaya gərilmiş vəziyyətdə bəbir təsviri aşkar edilmişdir. Döymə üsulu ilə təsvir edilmiş bəbirin bədəni siluetdə verilmiş, quyruğunun sonu bir qədər yuxarı yönəlmişdir. (8, s.24) Profildən göstərilmiş başqa bir bəbir isə başını aşağı salmış, sakit halda rəsm edilmişdir. Döymə-qazma üsulu ilə həkk edilmiş bu təsvir vasitəsilə qədim rəsam bəbirin fiziki əhamətlərini real ifadə etməyə çalışmışdır. Digər daşda iri buynuzlu öküzlə üz-üzə, ona hücum etməyə hazır vəziyyətdə bəbir rəsm edilmişdir. Gəmiqayada bəbirlərin sxematik təsvirlərinə də rast gəlinir. Onlardan biri sağa, digəri isə sola istiqamətlənmiş, hərəkətsiz olaraq rəsm edilmişlər. Bütün bəbir təsvirlərini səciyyələndirən əsas cəhət onların uzun, orta hissədə bir qədər əyilmiş quyruqlarının olduğu kimi göstərilməsidir. Gəmiqayada bədəni iki üçbucaq şəklində rəsm edilmiş bəbir təsvirləri də qeydə alınmışdır. Öz ovunun üstünə atılmağa hazır vəziyyətdə çəkilmiş bu rəsmlərin uzun quyruqları və pəncələri də qədim rəssam tərəfindən məharətlə təsvir edilmişdir.

Qədim maldarları ən çox narahat edən yırtıcı olan canavarların da rəsmləri Gəmiqaya daşlarında həkk edilmişdir. Realist üslubda verilmiş canavar rəsmi xüsusilə maraqlıdır. Siluet təsvir edilmiş bu rəsmdə canavar, bədəni bir qədər arxaya gərilmiş, boynunu uzadaraq ağzını yuxarı tutub ulayan vəziyyətdə göstərilmişdir (8,s.25). Bir daşda canavar başını aşağı əymiş, bədəni bir qədər geriyə gərilmiş, hücuma hazır vəziyyətdə təsvir edilmişdir. Başqa bir daşda canavarın keçiyə hücum səhnəsi öz əksini tapır. Burada canavar tək xətlə sxematik rəsm edilmişdir. Onun qulaqları şəklənmiş, quyruğu arxaya doğru düz uzanmış halda verilmişdir. Canavarın keçi ilə üzbəüz dayandığı başqa bir səhnə də maraqlıdır. Onların arasından uzun, dalğalı xətt keçir. Canavar tək xətlə, uzun quyruqlu, qulaqları şəklənmiş vəziyyətə təsvir edilmişdir. Onun arxa ayaqlarının yuxarı hissəsi bədəninə dairə şəklində birləşir. Daşlardan birində rəsm edilmiş mürəkkəb bir kompozisiyanın komponentlərindən biri də olduqca sxematik verilmiş canavardır. Onu buradakı digər rəsmlərdən nöqtələrdən ibarət əyri xətt ayırır. Digər bir daşda, dəvənin sxematik təsvirinə əks istiqamətdə həkk edilmiş canavar rəsmi başqalarından fərqlənir.(8, s 25) Onun bədəni uc-uca birləşmiş iki üçbucaq şəklindədir. İrəli uzanmış boynu uzun, qulaqları şəklənmiş vəziyyətdə göstərilmişdir. Bədənini təşkil edən üçbucaqlardan aşağıya doğru dörd ədəd ayaqları təsvir edilmişdir. Uzun quyruğunun sonluğu yuxarıya qatlanmışdır.

Ötən əsrin 60-70-ci illərində **Kəlbəcərdə** - Dəlidağın ətəklərində Alagölün, Zalxagölün, Qaragölün sahillərində, Ayıçınqılı, Pəriçınqılı, Lülpər, Sarımsaqdağ, Gəlinqaya, Yazyurdu, Taxta adlanan yerdə xeyli sayda yırtıcı heyvan rəsmləri qeydə alınmışdır. (4, s.13) Dəniz səviyyəsindən 3000 m yüksəklikdə yerləşən bu təsvirlərin içərisində xeyli sayda pişşkimilərin və itkimilərin döymə üsulu ilə çəkilmiş təsvirləri vardır. Kəlbəcər təsvirlərinin çəkilmə texnikası və dövrü Gəmiqaya abidəsindəki digər yırtıcı rəssmləri ilə xeyli oxşardır. (3,s.51) Tunc dövründə köçəri maldarlıq təsərrüfatının sürətlə inkşafı ilə əlaqədar olaraq yeni otlaq sahələrinin əldə olunması üçün bu yerlər çox əlverişli olmuşdur. Maldarların təsərrüfatı həmişə yırtıcıların hücumuna məruz qalmışdır. Çobanlar bu yırtıcılardan - canavarlardan qorunmaq üçün itlərin köməyindən istifadə etmişdirlər. Kəlbəcərdə yırtıcı heyvan təsvirlərinin içərisində ən çox diqqət çəkən bəbir təsvirləridir. Tədqiqatçı Qüdrət İsmayılzadə burada xeyli sayda bəbir təsviri qeydə almışdır. Bəbirlərin təsviri yığcam, lakin dinamik, olduqca canlı təsir bağışlayır. Bəzi daşlarda hətta bəbirlər sürü şəklində təsvir edilmişdirlər. Bir iri bazalt daşın üzərində 8 bəbir təsviri verilmişdir. (Şəkil 4) Bəbirləri biri digərinə bənzəmir, bir-birini təkrar etmir. Burada bəbirlər müxtəlif vəziyyətlərdə lakin eyni istiqamətdə təsvir ediliblər. (5, s.7) Rəssam onların toplu halında hərəkətini təsvir edib, miqrasiya edirmiş kimi görünürlər. Bəlkə də yaxınlıqda yerləşən göllərdən su içməyə gəlmişdirlər. Burada bəbirlərin baş-boyun hissəsinin forması, belinin nazikliyi, quyruğunun nisbətən yuxarı qatlanmış formada təsvir olunması rəssamın bu yırtıcıları necə dəqiqliklə müşahidə edə bilməsini göstərir. Başqa bir daşda

isə iki bəbir təsvir edilmişdir. Onların biri digərinə nisbətən iridir. Ölçülərin fərqliliyi bəlkə də onların erkək və dişi olduğunu göstərir. Onlardan azacıq yuxarıda isə qıfıla bənzər təsvir var. Bəlkə də bu tələ təsviridir ya da ovsunçuluqla bağlıdır. (Şəkil 3) Dəlidağın ətəklərində xeyli sayda canavar rəsmi həkk olummuş daşlar da var.

**Abşeron** petroqliflərində də müxtəlif yırtıcılar öz əksini tapıb. Tunc və dəmir dövrlərinə aid edilən təsvirlər yarmadanın Zirə, Türkan, Ramana, Şüvalan, Şağan, Bəndüstü, Dübəndi və s. yerlərdə aşkar olunmuşdur.(4, s.13) Burada maraqlı şir təsvirlərinə Dübəndi - terminal yaşayış yerində rast gəlinmişdir. Daşın üzərində iki şir fiquru təsvir olunmuşdur. Şirlər bir birinin əksi istiqamətində dayanmışdırlar. (1, s. 82) Tədqiqatçı İdris Əliyev bu şir təsvirlərini yaşını eradan əvvəl II minilliyə aid olduğunu qeyd etmişdir. Bəndüstü yaşayış yerində aşkar edilmiş təsvirdə isə ox atan kişilərlə, maral təsviri ilə yanaşı şir təsviri də verilmişdir. Eyni yaşayış yerindən dini ayin icra etdiyi güman edilən insan təsvirinin yanında şir təsvirləri verilmişdir. Burdakı şirlərin üzü sağ tərəfdə dayanmış və qollarını göyə açmış insana tərəf çəkilmişdir. Şirlərin baş və boyun hissələri qalın, beli nazik, quyruqları isə yuxarı qatlanmış vəziyyətdədir. Hər iki şirin ağızı açıq formadadır. Həmin tabloda aydın görünən şirlərdən başqa tamlığı pozulmuş bir neçə yırtıcı heyvan təsviri də var. (1, s.63) Başqa bir lövhə üzərində isə qadın, kişi, ceyran təsvirləri ilə birlikdə itlər və şir təsvir olunmuşdur. Bəndüstü yaşayış yerindən aşkar olunmuş "İnsanın qurban verilməsi" adlandırılan tabloda hansısa ayin icra olunur. Burada bir nəfərin başı üzərində yırtıcı heyvan var və o hər iki tərəfdən oxla nişan alınıb. Sanki o da qurban verilir. (1,s.70) Abşerondakı yırtıcı təsvirləri əksər hallarda insalarla birlikdə verilib və çox icra olunan ritualların ayrılmaz komponentidir.

Kiçik Qafdaz dağlarında - indiki Ermənistan adlandırılan **Qərbi Azərbaycan** torpaqlarında **Göyəm**, **Zəngəzur** ərazilərində də xeyli sayda yıtıcı heyvan təsvirləri var. Qədim Azərbaycan torpaqları olan Zəngəzurda, Göyəm dağında, Göyçə gölünün ətraflarında çoxsaylı it, pişik, bəbir və. s heyvanların təsvirləri var. Oradakı təsvirlərin böyük bir qismini itlər təşkil edir. Buradakı it təsvirləri əsasən xırdabuynuzlu heyvanların və çobanların yanında təsvir edilmişdir. Zəngəzur abidələrindəki itlərin əksəriyyəti əlində dəyənək olan insan təsvirlərinin yanında yer alır. (Şəkil 5, 6) Tabloların birində dörd insanın əhatəsində bir it təsviri verilmişdir. Orada iki nəfərin əlində uzun dəyənək digər iki nəfərin əllərində isə dəyənəklə yanaşı qalxana bənzəyən oval alət tutmuşdurlar. Digər bir səhnədə isə üç it bir ilanla birlikdə verilmişdir. Burada itlərdən ikisi üzüzə yaxın məsafədə dayanmışdırlar. Diqqət çəkən digər bir daşın üzərində bəbirlərin keçiyə hücum etməsi təsvir olunur. Əlində dəyənək olan iki çobana onların itləri də keçiləri xilas etmək işində yardımçıdırlar. (Şəkil 5) Başqa diqqət çəkən görüntü isə itlərdən ov məqsədi ilə istifadə olunduğunu göstərən təsvirdir. Ovçunun əlində uzun nizəyə bənzər alətlə maral ovlayır. Bu kompozisiyada ovçunu dörd ov iti müşayət edir. (Şəkil 6) Başqa bir kompozisiyalı daşda isə canavar keçi sürüsünə hücum edib iki çoban itlə birlikdə sürünü canavardan xilas etməyə çalışırlar. Göyəm dağında itlər daha çox keçilərlə birlikdə təsvir olunub. (Şəkil 7) Həmçinin Göyəm dağında iri quş, maral, itlər və insan təsvirinin bir yerdə verildiyi tablo maraq doğurur. Burada ovçunun və ya təsərrüfat qoruyan insanın itlərin köməyi ilə hansısa yırtıcını öldürdüyünü demək olar. (Şəkil 8) Göyəm dağında oxla keçiləri nişan alan iki ovçunun yanında itlər də təsvir edilmişdir. (Şəkil 9) Buradan göründüyü kimi Kiçik Qafqaz petroqliflərində itlər təsərrüfat itləridir, insanların, çobanların, ovçuların yardımçısıdır. Bu ərazilərdə itlərlə yanaşı xeyli sayda pişik və bəbir təsvirləri də vardır. Qərbi Azərbaycan ərazisindəki təsvirləri digər abidələrimiz kimi ermənilər özününküləşdirməyə çalışırlar. Lakin tədqiqatçı Nəcəf Müseyibli haqlı olaraq bu abidələrin və Gəmiqaya, Kəlbəcər təsvirləri ilə birlikdə vahid mədəniyyətə, qədim Azərbaycan tarixinin, mədəniyyətinin tərkibi olduğunu əsərləri ilə təsdiq etmişdir.

Göründüyü kimi Azərbaycanın qədim petroqliflərində biri – birindən maraqlı xeyli sayda yırtıcı heyvan təsvirləri var. Bu təsvirlərin yerləşdiyi abidələr müxtəlif coğrafi möv-

qelərdə olduğu kimi oradakı yırtıcı heyvanların təsvir olunma texnologiyaları da müxtəlifdir. Qobustanda, Abşeronda bu təsvirlər cızma, sürtmə, oyama üsulu ilə çəkilsə də Kiçik Qafqaz dağlarındakı abidələrdə daha çox döymə üsulundan istifadə edilmişdir. (8, s.13) Bunun da əsas səbəblərindən biri Gəmiqayada və Kəlbəcərdə rəsmlərin dördüncü geoloji dövrə aid lavalardan yaranmış, sərt, iri bazalt daşlarına həkk olunması ilə bağlıdır. Bütün bu təsvirlərin içərisində işlənmə texnikasına görə cəmi bir istisna var ki o da Qobustanda olan xallı pələngin marala hücum etməsi səhnəsidir. Burdakı fərqli xüsusiyyət rəngdən – boyadan istifadə olunmasıdır. Bu rəsm Azərbaycan qayaüstü incəsənətində yeganə rənglə işlənilmiş yırtıcı təsviridir. Yuxarıda qeyd olunan təsvirlərin yaşlarına gəldikdə tədqiqatçılar Abşeron yırtıcılarını tunc dövrünün sonuna - e.ə. III – II minilliyə, Qobustan təsvirlərini daha qədim dövrlərdən orta əsrlərə qədər, Gəmiqaya, Kəlbəcər petroqliflərini isə əsasən tunc dövrünə aid edirlər. Bir çox təsvirlərin yaşını dəqiqləşdirməyə ehtiyac var.

Təsüflə qeyd emək lazımdır ki, faunamızın bu gözəl canlıarının bəzilərinin Azərbaycanda nəsli kəsilmişdir. Bunlar pişikkimilərin iri nümayəndələri olan şir və pələngdir. Hirkan bəzən də Xəzər pələngi adlandırılan bu canlılara 1970 – ci ildən sonra dünyanın heç bir yerinddə rast gəlinməmişdir. Lakin sevindirici haldır ki, qədim rəssamların qayalarda əbədiləşdirdikləri bəbirlər (Pantera pradus ciscaucasica və ya pantera pradus saxicolor) dövrümüzdə də Azərbaycan yaşayırlar. Onlara minillər əvvəl rast gəlindiyi, müşahidə edilib təsvir edildiyi yerlərdə - Kəlbəcərdə, Laçında, Naxçıvanda bu gün də təsadüf edilir. Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Fondunun (WWF) nümayəndələrinin 2012–ci ildə Zəngəzur Milli Parkının cənub hissəsində quraşdırılmış videotələlər vasitəsi ilə Azərbaycanda ilk dəfə iki bəbirin videogörüntüsü əldə edilmişdir.

Gələcəkdə qayalar üzərindəki yırtıcı təsvirlərinin kompleks tədqiq olunması qədim Azərbaycanın faunasının, insanların ovçuluq və heyvandarlıq təsərrüfatının, dini mistik dünyagörüşlərinin və. s öyrənilməsi istiqamətində yeni səhifələr açacaqdır.

## ƏDƏBİYYAT

1. Abdullayev F, Əliyev İ. Naməlum Abşeron. Bakı, 2011
2. Aslanov Q.M. Abşeronda arxeoloji qazıntılar. AMM , VI cild Bakı, 1965
3. Əliyev V. H. Tarixin izləri ilə. Bakı, 1975
4. Fərəcova M.N. Azərbaycan qayaüstü incəsənəti . Bakı 2009
5. İsmayılov Q.S. Azərbaycanın yeni Qobustanı. Elm və həyat jurnalı. VI say. Bakı, 1977.
6. Müseyibov N.Ə. Qobustan və Gəmiqaya işarələri. Tarix və onun problemləri. Bakı, 1998 N 4
7. Müseyibov N.Ə. Gəmiqayada aşkar edilmiş yeni qayaüstü rəsmlər. Tarix və onun problemləri. Bakı, 2002 N 2
8. Müseyibli N.Ə . Gəmiqaya. Bakı, 2004.
9. Müseyibli N.Ə. Gəmiqayanın arxeoloji tədqiqi. Azərbaycan Arxeologiyası. Bakı, 2002
10. Rüstəmov C.N. Qobustan dünyası. Bakı, 1994
11. Алиев В.Г. Петроглифы Гемигая. Баку, 1985
12. Джафарзаде И.М. Гобустан – Наскальные изображения. Баку,1973
13. Исмаилзаде Г.С. Шедевры наскального искусства Азербайджана. Журнал «Мирас» Ашхабад. 2008
14. Исмаилзаде Г.С. Петроглифы Азербайджана – как составная часть искусства Евразии. Тбилиси, 1996
15. Мусеибли Н.А. Культ собаки в древнем Азербайджане. www. azeovcharka. narod.ru / arxiologia.html

***Иманов Эльнур Муслим оглы***

## К ВОПРОСУ О РИСУНКАХ ХИЩНИКОВ В НАСКАЛЬНЫХ ИЗОБРАЖЕНИЯХ АЗЕРБАЙДЖАНА БРОНЗОВОГО ВЕКА

### *РЕЗЮМЕ*

Статья посвящена описанию образов хищников в наскальных изображениях бронзового периода Азербайджана. В ней отмечается, что в период бронзового века в Азербайджане среди многочисленных наскальных изображений встречается не-

мало рисунков хищников. В наскальных изображениях Гобустана, Гямигая, Кельбаджара, Апшерона, Западного Азербайджана, ныне называемого Арменией, имеются образцы изображения хищников, которые представляют особый интерес. Это изображения собак, волков, леопардов. Ввиду различного природно-географического месторасположения этих памятников на территории Азербайджана, то техника, стиль и причины отображения обитаемых там хищников, тоже различны. Иногда они изображены в одиноком виде. Однако в большинстве случаев, эти изображения в зависимости от различной тематики во внутри выбранной композиции по линии оригинального сюжета. В Гобустане, Апшероне изображения были выполнены способом выкапывания мягких известковых камней. В памятниках гор Малого Кавказа был использован метод выдалбливания, оттиска. Главная причина применения этого способа в том, что Гямигая и Келбаджарах в состав камней входил твёрдый габбро-диорит. Обращается внимание на то, что среди всех рисунков одно исключение-это сцена нападения пятнистого тигра на оленя. Её отличительная особенность состоит в выборе красок и своеобразных цветов. Изображение хищников было выполнено единственно известным цветом в наскальном искусстве Азербайджана. Что касается даты создания данных рисунков, исследователи относят изображения хищников Апшерона к концу бронзового периода – III-II тысячелетию до н. э Гобустанские изображения они относят к периоду до средневековья. А рисунки гор Малого Кавказа (Гямигая, Кельбаджар, западного Азербайджана) к периоду бронзового века. Дальнейшие, более глубокие исследования в области изучения наскальных рисунков хищники откроют новые страницы в направлении проведения исследования фауны древнего Азербайджана, развитые в нем охоты, животноводческого хозяйства, религиозно-мистического мировоззрения.

***Imanov Elnur Muslim oglu***

## DRAWINGS OF PREY ANIMALS ON THE ROCK CARVINGS OF BRONZE AGE IN AZERBAIJAN

### *SUMMARY*

Including numerous drawings of prey animals, there are many drawings of animals in the Bronze Age rock art in Azerbaijan. There are examples of interesting drawings of prey animals on the rock carvings of Gobustan, Kalbajar, Gamigaya, Absheron and Western Azerbaijan called as Armenia at present. These are the drawings of leopards, dogs and wolves. The monuments that have these drawings are situated in various natural and geographical areas and that is why the causes of drawing prey animals, the carving technique and style of drawings are different. Prey animals were drawn sometimes alone, and in many cases in the compositions that were distinguished with their variety of topics and original plot lines. The drawings were carved mostly on soft limestone by drilling technique in Gobustan and Absheron. But the drawings were carved mostly by forging technique in the monuments in Lesser Caucasus. One of the main reasons of it is that stones are solid and similar to gabbro-diorite in Kalbajar and Gamigaya. There is only one exception among all these drawings. It is a drawing in which a spotted tiger attacks a deer. A distinctive feature of this drawing is that colour and paint have been used here. This is the only drawing of prey animal that has been known in Azerbaijan rock art and in which colour has been used. With regards to the age of the above-mentioned drawings, researchers include prey animals of Absheron in the end of Bronze Age –III-II millennium BC, Gobustan’s drawings in medieval and drawings of Lesser Caucasus (Gamigaya, Kalbajar, Western Azerbaijan) in Bronze Age. More detailed study of the drawings of prey animals in future will open new pages in the study of the fauna of Azerbaijan, the hunting and livestock farming and religious - mystical perspectives of people etc.


Şəkil 1


Şəkil 2


Şəkil 3


Şəkil 4


Şəkil 5


Şəkil 6


Şəkil 7


Şəkil 8


Şəkil 9